“AccessBank”

**QAPALI SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 1 000 (bir min) ABŞ dolları olan 5 000 (beş min) ədəd faizli, sənədsiz, adlı, təminatsız istiqrazların**

**(Aqrar İnkişaf İstiqrazları)**

# EMİSSİYA PROSPEKTİ

AccessBank | 20 years

**Bakı, 2022-ci il**

**MÜNDƏRİCAT**


**A.** Emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı....................................................................3

**B.** Xülasə..........................................................................................................4

**C.** İstiqrazlar barədə məlumat..........................................................................15

**D.** "AccessBank" QSC barədə məlumat...........................................................28

**E.** "AccessBank" QSC-nin maliyyə hesabatları (əlavə edilir)...........................................................................................................37


*Qeyd*:

*-Emissiya prospektinin mətnində "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti Emitent, "AccessBank" QSC və ya Bank adları altında çıxış edir.*

*- Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir*

**A.** Emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə məsul şəxslərin bəyanatı

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik;
2. Bu Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyünü təsdiq edirik.

<u>İdarə Heyətinin Sədri</u>

**<u>Tsiklauri Davit</u>**

___________________________________

<u>İdarə Heyətinin Sədrinin müavini - Baş maliyyə inzibatçısı</u>

**<u>Hüseynov Ramin Şəhadət oğlu</u>**

___________________________________

## B. Xülasə

Xəbərdarlıqlar

1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

1.2. Qiymətli kağızlara investisiya etmək barədə investorun hər hansı bir qərarı emissiya prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.

1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

2. Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı**: "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə**: Azərbaycan Respublikası, Bakı şəh., Tbilisi prospekti 3,

2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri**: "AccessBank" QSC-nin əməliyyat apardığı sahələrə təsir edən ən məlum tendensiyalar barədə məlumat:

**Rəqəmsal bankçılığa diqqətin artırılması.**

Emitent həm fərdi, həm də mikro, kiçik və orta sahibkarlara göstərdiyi bank xidmətlərinin rəqəmsallaşmasının effektiv və sürətli tətbiq edilməsinə əhəmiyyət verir. Rəqəmsallığa keçid xidmət keyfiyyətinin yüksəldilməsinə və əməliyyatların səmərəliyinin artmasına səbəb olacaqdır. Həmçinin, bu müştəri məlumatlarının toplanmasının keyfiyyətini artırmaqla təhlil prosesinə öz müsbət təsirini göstərəcəkdir.

- **Dəyişən biznes modelləri.**

  Bir çox banklar yeni məhsullar yaratmağa, biznes modellərini optimallaşdırmağa və gəlirliliyi qorumaq üçün əməliyyat

səmərəliliyində davamlı təkmilləşdirmələr axtarır, yeni məhsul və xidmətlərlə davamlı gəlirliliyi artırmağa yönəlik tədbirlər həyata keçirir. Yeni modellərin tətbiqi müştərilərə daha çevik bank xidmətləri təklif etməyə imkan verir.

- **İqtisadi faktorlar.**

  Post-pandemiya dövründə iqtisadi bərpanın sürətlənməsi, bir çox iqtisadı göstəricilərin pandemiyadan əvvəlki vəziyyətə qayıtması gözlənilən sabitliyi təmin etməyə zəmin yaradır. Lakin, iqtisadi artımın zəminində inflyasiyanın artımı faiz dərəcələrinin dəyişməsinə səbəb ola bilər ki, bu da volatilliyi artırır. Bankçılıq xidmətinin daha geniş yayılması ilə müştəri tələblərinin artması və məsafədən idarə olunan bankçılığa üstünlük verilməsi, pandemiyadan irəli gələn dəyişikliklər bankçılığa təsir edən amillərdəndir.

2.4. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** AccessBank QSC  Millikart MMC-nin təsisçisilərindən biridir və MMC-nin 0.67% payına sahibdir.

2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

2.6. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** "AccessBank" QSC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətinin audtini aparmış "PraysvoterhausKupers Audit Azərbaycan" MMC rəyinə əsasən, “AccessBank” QSC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

2.7 **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri.**

**Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| (min manatla) | 2021 | 2020 | 2019 |
|---|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | 7 867 | (20 396) | 13 590 |
| **Xalis mənfəət (zərər)** | 4 317 | (18 908) | 4 688 |
| **Cəmi aktivlər (dövrün sonuna)** | 888 568 | 804 681 | 863 290 |
| **Cəmi öhdəliklər (dövrün sonuna)** | 809 299 | 729 729 | 769 430 |
| **Cəmi kapital (dövrün sonuna)** | 79 269 | 74 952 | 93 860 |
| **Pul vəsaitləri (dövrün sonuna)** | 135 314 | 171 265 | 132 198 |

**Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun (audit olunmamış) 6 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:**

| (min manatla) | 2022 (6 ay) | 2021 (6 ay) |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | 11 903 | 4 475 |
| **Xalis mənfəət (zərər)** | 11 903 | 4 475 |
| **Cəmi aktivlər (dövrün sonuna)** | 991 332 | 809 127 |
| **Cəmi öhdəliklər (dövrünsonuna)** | 900 164 | 729 693 |
| **Cəmi kapital (dövrün sonuna)** | 91 167 | 79 435 |
| **Pul vəsaitləri (dövrün sonuna)** | 143 138 | 145 976 |

2.7.1 **Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Dəyişiklik baş tutmamışdır.

2.8 **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

- **Xarici faktorlar/hadisələr:** Dünya bazarında neft qiymətlərində neqativ dəyişiklik ölkə iqtisadiyyatına mənfi təsir edə bilir və bu hal bank sektoruna da öz təsirini göstərir. Son bir ildə neft qiymətlərinin artan istiqamətdə dəyişməsi ölkə iqtisadiyyatının maliyyə dayanıqlığına müsbət təsir etmişdir. Eyni zamanda dövlət tərəfindən iqtisadiyyatın diversifikasiyası və neft sektorundan asıllığın azaldılması istiqamətində apardığı siyasət bu təsirin azaldılmasında mühüm rol oynamağa başlamışdır. Nəticədə bankın kredit portfeli artan istiqamətdə dəyişmişdir.
- **Daxili faktorlar**: AccessBank kredit portfelinin həcminə, müştərilərə təqdim etdiyi məhsullara və müştəri məmnuniyyətinin yüksək səviyyəsinə görə sektorda uzun müddətdir ki, öz yüksək mövqeyini qoruyub saxlayır. AccessBank strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir.Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir.

2.9 **Emitentin əsas fəaliyyətinin təsviri:**

Emitent fərdi şəxslərə, mikro, kiçik, orta və iri sahibkarlara tam bank xidmətləri dəstini təklif edir. Bank aşağıdakı fəaliyyət növlərini həyata keçirir:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi; Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən mikro, kiçik və orta biznes, istehlak və ipoteka kreditləşməsi və digər kreditləşdirmə növləri; Fiziki və hüquqi şəxslərə hesabların açılması və aparılması, o cümlədən bankın müxbir hesablarının açılması və aparılması;

- Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin və ödəniş vasitlələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
- Ödəniş vasitələrinin (o cümlədən, kredit və debet kartlarının) buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi; Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi, öz hesabına və ya müştərinin hesabına akkreditivlərin açılması;
- Sənədlərin və qiymətliləri, o cümlədən pul vəsaitlərinin saxlanca qəbul etmək (xüsusi otaq və ya seyf qutularında saxlamaq);
- Sənədlərin və qiymətliləri, o cümlədən pul vəsaitlərinin saxlanca qəbul etmək (xüsusi otaq və ya seyf qutularında saxlamaq);
- Qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

2.10 **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** Emitentin ali idarəetmə orqanları Ümumi Yığıncaq, Müşahidə Şurası,İdarə Heyəti, Audit Komitəsi və tətbiq edilən Qanunvericiliyə uyğun olaraq yaradılmış digər idarəetme orqanlarıdır. Ümumi Yığıncaq Müşahidə Şurası tərəfindən hazırlanmış hesabatları təhlil ve müzakirə edir və Nizamnamədən və tətbiq edilen Qanunvericilikdən irəli gələn digər səlahiyyətləri icra edir. Emitentin idarə olunmasına və işinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurasının vəzifələri aşağıdakı kimidir: Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən İdarə Heyətindən hesabatlar və məlumatlar tələb etmək, Nizamnaməyə dəyişiklərin edilməsi üçün Ümumi Yığıncağa təkliflər vermək, Bankın təşkilatı və idarəetmə strukturunu və əməliyyat prosedurlarını, kredit, girov və əmək haqqı siyasətlərini təsdiq etmək, Bankın bölmələrini yaratmaq və ya fəaliyyətlərinə xitam vermək, maliyyə ili ərzinde Bankın biznes əməliyyatlarına dair hesabatları müzakirə etmək və təsdiq etmək və auditor yoxlamasından keçmiş illik maliyyə hesabatları ilə tanış olmaq, tövsiyyə vermək və təsdiq olunması üçün Ümumi Yığıncağa təqdim etmekdir.Müşahidə Şurasının üzvləri Müşahidə Şurasının iclaslarında şəxsən və ya nümayəndələri vasitəsilə təmsil olunurlar.

3. Qiymətli kağızlar haqqında məlumat

3.1. **İstiqrazların növü:** Faizli, adlı, sənədsiz, təminatsız istiqrazlar

3.2. **İstiqrazların valyutası:** ABŞ dolları

3.3. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil

3.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;
- İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 5,5 (beş tam onda beş) faiz olmaqla, rüblük qaydada istiqrazların tədavül müddəti ərzində faiz ödənişləri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.5 **İstiqrazların faiz dərəcəsi (kupon). İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 5,5 (beş tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda günlərin sayı 30 gün olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından bir ödənilir.

Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

3.6 **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar üzrə təminat mövcud deyildir.

3.7 **İstiqrazların geri satın alına şərtləri:** İstiqrazların emitent tərəfindən geri alınması nəzərdə tutulmamışdır.

3.8 **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərindən illik 5,5 (beş tam onda beş) faiz məbləğində kupon faiz ödənişləri həyata keçiriləcəkdir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$N$ – Bir istiqrazın nominal dəyəri – 1 000 (bir min) ABŞ dolları

$D$ – İstiqrazların illik faiz dərəcəsi – 5.5 (beş tam onda beş);

$G$ – İstiqrazların ödəniş dövrünün müddəti - 90 (doxsan) gün, (hər 3 aydan bir, bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 13.75 (on üç tam yüzdə yetmiş beş) ABŞ dolları təşkil edir.

3.9 **İstirazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

3.10 **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar üzrə təminat mövcud deyildir.

3.11 **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların

kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra Bakı Fond Birjası QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

4. Risk faktorları

4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

- Kredit riski – Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir;
- Faiz dərəcəsi riski – bazar faiz dərəcələrinin yüksəlməsi nəticəsində istiqrazların bazar qiymətinin düşməsi riskidir;
- Valyuta riski – Azərbaycan manatının əsas valyutalara qarşı məzənnəsinin investorlar üçün əlverişsiz istiqamətdə dəyişməsi riskidir;
- Əməliyyat riski – ticarət və ödəniş sistemlərində daxili proseslər, sistem pozuntuları, insan faktoru, təbii fəlakətlər və digər bu kimi amillərdən meydana gələn və istiqrazlar üzrə hüquqların tam və vaxtında həyata keçirilməsinə manə ola biləcək risklərdir;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyüdür.

4.2. **İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Əlverişsiz makroiqstisadi trendlər, təbii fəlakətlərin baş verməsi (fors-major hallar), qlobal və yerli rəqabət, qanunvericilikdə emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən dəyişikliklər.

5. Təklif

5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Fərqli deyil.

5.2 **Təklifin şərtlərinin təsviri:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.

İstiqrazların rəqabətli hərrac üsulu ilə yerləşdirilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir:

- Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır;
- Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması;
- Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;
- Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir;
- Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir;

- Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına (anderrayterə) açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilirlər.
- Hərrac zamanı təqdim oluna biləcək sifarişin aşağı həddi istiqrazın nominal dəyərinə uyğun olaraq 1000 (bir min) ABŞ dolları təyin edilir.

5.3 **Emisiyada iştirak edən şəxslərin maraqları o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşması mövcud deyildir

5.3.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

5.3.2. **Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- Istiqraz mülkiyyətçilərin reyestrinin aparılması;

- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

5.3.3. **Baş anderrayter - "ABB-İnvest İnvestisiya Şirkəti" QSC** 18 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.
- Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

5.3.4. **Sub anderrayter. "Unicapital İnvestisiya Şirkəti" ASC** 08 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-30 /2016, 087910 №-li müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir və müştərək anderrayter müqaviləsinə uyğun olaraq istiqrazların yerləşdirilməsi prosesində iştirak edir.

5.4 **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**5.4.1 Vergilər.** İstiqrazlar üzrə faiz ödənişi zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən

investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır. Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır

**5.4.2 Xərclər.** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır.Bakı Fond Birjasında yerləşdirmə xərcləri icra olunan əqdin həcmindən 0.02% (sıfır tam yüzdə iki faiz) olmaqla təşkil edir. “Depo” hesab açılışı 10 (on) manat və İnvestisiya Şirkətinin hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (köçürməni edən bankdan asılı olaraq) dəyişir.

**C.** Istiqrazlar barədə tələb olunan məlumat

1. Əsas məlumat

1.1. **Emissiyada iştirak edən şəxslərin maraqları o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** maraqların toqquşması ilə bağlı hal mövcud deyil.

1.1.1. **“Bakı Fond Birjası” QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” –ni

həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

1.1.2. **Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
  İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

1.1.3. **Baş anderrayter - "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-i** 18 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.
- Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən

sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

1.1.4. **Sub anderrayter. "Unicapital İnvestisiya Şirkəti" ASC-i** 08 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-30 /2016, 087910 №-li müddətsiz lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir və müştərək anderrayter müqaviləsinə uyğun olaraq istiqrazların yerləşdirilməsi prosesində iştirak edir.

1.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

İstiqrazların yerləşdirilməsindən əldə olunan vəsait Aqrar sahələrdə fəaliyyət göstərən sahibkarların layihələrinin maliyyələşdirilməsi üçün istifadə ediləcəkdir.

1.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərin məbləği və mənbələri:** İstiqrazların yerləşdirilməsi nəticəsində əldə ediləcək vəsait nəzərdə tutulan layihələrin maliyyələşdirilməsi üçün kifayət etmədikdə, Bank bu layihələri beynəlxalq maliyyə qurumları, əhali və hüquqi şəxslər vasitəsi ilə maliyyələşdirəcək.

1.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait qeyd olunan bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

2. İstiqrazlar barədə məlumat

2.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları: Bu emissiya prospekti ilə müəyyən edilən istiqraz emissiyası aşağıdakı normativ-hüquqi aktların tələbləri nəzərə alınaraq hazırlanmışdır**:

2.1.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi;

2.1.2. Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu;

2.1.3. İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar;

2.1.4. Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar.

2.2. **İstiqrazların növü :** Faizli, təminatsız, adlı, sənədsiz istiqrazlar

2.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı ayrılıqda göstərilməklə):** "AccessBank" QSC tərəfindən yeni buraxılan istiqrazlar barədə məlumat:

| | Yeni buraxılış |
|---|---|
| Say | 5 000 (beş min) ədəd |
| Nominal dəyəri | 1 000 (bir min) ABŞ dolları |

2.4. **İstiqrazların valyutası:** ABŞ dolları

2.5. **Istiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;

Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

2.6. **Təklif olunan istiqrazlaın reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

2.7. **İstiqrazlara təsbit olunan hüquqlar onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

  İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;

  İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 5,5 (beş tam onda beş) faiz olmaqla, rüblük qaydada istiqrazların tədavül müddəti ərzində faiz ödənişləri almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

Yuxarıda qeyd edilən hüquqların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər Azərbaycan Respublikasının müvafiq sahəni tənzimləyən qanunvericilik aktları ilə müəyyən edilir.

2.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi:** İstiqrazlar üzrə faiz (kupon) gəlirliyi illik 5,5 (beş tam onda beş) faiz təşkil edir.

2.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 5,5 (beş tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 (on səkkiz) ay müddətində ildə günlərin sayı 360 (üç yüz altmış) və bir ayda

günlərin sayı 30 gün olaraq götürülməklə) hər 3 (üç) təqvim ayından bir ödənilir.

2.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

2.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

2.12. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

2.13. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikası Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması ABB-İnvest İnvestisiya Şirkəti QSC-nin hesablaşma agenti olan Azərbaycan Beynəlxalq Bankı ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

2.14. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təminatsız formada buraxılacaqdır.

2.15. **İstiqrazların geri satın alınması şərtləri:** İstiqrazların Emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır.

2.16. **Gəlirlik dərəcəsi və onun hesablaşma qaydası:**

İstiqrazların nominal dəyəri üzrə faiz gəlirliyi illik 5,5 (beş tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;

***N*** – Bir istiqrazın nominal dəyəri – 1 000 (bir min) ABŞ dolları

***D*** – İstiqrazların illik faiz dərəcəsi – 5.5 (beş tam onda beş);

***G*** – İstiqrazların ödəniş dövrünün müddəti - 90 (doxsan) gün , (hər 3 aydan bir, bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 13.75 (on üç tam yüzdə yetmiş beş) ABŞ dolları təşkil edir.

2.17. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcüd deyil.

2.18. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi nömrəsi və qərarın qəbul etmiş emitentin idarəetmə orqanının adı:** İstiqrazların emissiyası haqqında qərar "AccessBank" QSC-nin Müşahidə Şurası tərəfindən 16 sentyabr 2022-ci il tarixində baş tutmuş 110-cu iclasında qəbul edilmişdir.

2.19. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda) :** Mövcüd deyil.

2.20. **İstiqraz üzrə gəlirdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividentlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır. Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək

vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.
İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinə ötürülür. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

3. Təklifin şərtləri

3.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış “Bakı Fond Birjası” QSC-nin (www.bfb.az) və anderrayterin saytında investorlara açıqlanacaqdır.Yerləşdirmə başlandığı tarixdə etibarən 7 (yeddi) iş günü ərzində başa çatacaqdır.

3.2. **Təklifin qüvvədə olduğu müddət ərzində emissiya prospektinə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda (“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla

müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

3.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanacaqdır.

3.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan, Bakı Fond Birjası QSC-nin ticarət platformasında hərracın təşkil edilməsi yolu ilə həyata keçiriləcəkdir.

3.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə hərracın keçirilməsi qaydası:**

İstiqrazların rəqabətli hərrac üsulu ilə yerləşdirilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir:

- Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır;
- Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması;
- Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;

- Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir;
- Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir;
- Hərrac zamanı qeyri-rəqabətli sifarişlər nəzərdə tutulmamışdır.
- Hərrac zamanı təqdim oluna biləcək sifarişin aşağı həddi istiqrazın nominal dəyərinə uyğun olaraq 1000 (bir min) ABŞ dolları təyin edilir.

3.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi köçürmə yolu ilə "ABB-İnvest İnvestisiya Şirkəti" QSC və "Unicapital İnvestisiya Şirkəti" ASC vasitəsilə həyata keçiriləcək. İstiqrazların dəyərin ödənilməsi barədə məlumat açıqlandıqdan sonra istiqraz əldə edəcək şəxslər sifariş təqdim edəcək və almaq niyyətində olduğu istiqrazların dəyərini investisiya şirkətlərinin hesablaşma agentində olan hesabına köçürəcək. Hərrac başa çatdıqdan sonra 1 (bir) iş günü ərzində müvafiq investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edəcəkdir.

3.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

3.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir. İstiqrazların satışı xəbərdarlıq edilmədən başlanıla bilməz.

3.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** Bir istiqrazın minimal təklif qiyməti 1 000 (min) ABŞ dolları təşkil edir.

3.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

3.10.1. **Vergilər.** Qanunvericiliklə nəzərdə tutulan halda Emitent dividentlər üzrə faiz ödənişi zamanı qanunvericiliklə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən, 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır. Həmin Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

3.10.2. **Xərclər.** İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bakı Fond Birjasında yerləşdirmə xərcləri icra olunan əqdin həcmindən 0.02% (sıfır tam yüzdə iki faiz) olmaqla təşkil edir. “Depo” hesab açılışı 10 (on) manat və İnvestisiya Şirkətinin hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (köçürməni edən bankdan asılı olaraq) dəyişir.

3.11. **İstiqrazları öhdəlik götürməklə yerləşdirən anderrayterlər barədə məlumat (adı lisenziyası və ünvanı). Xidmət haqqı:**

3.11.1. **Baş Anderrayter:** “ABB-İnvest İnvestisiya Şirkəti” QSC

**Lisenziyası:** Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 18.09.2020-ci il tarixində verilmiş İŞ-05 nömrəli “investisiya şirkəti fəaliyyəti”nə dair Lisenziya

**Hüquqi ünvanı:** Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67

**Faktiki ünvanı:** Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə), AZ1065, Azərbaycan

**Xidmət haqqı:** Müştərək müqavilədə öz əksini tapmışdır.

3.11.2. **Sub Anderrayter:** "Unicapital İnvestisiya Şirkəti" ASC

**Lisenziyası:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş İSN/L-30/2016, 087910 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya

**Hüquqi ünvanı:** Bakı şəhəri, Rəşid Behbudov küç. 55, 384-cü məhəllə

**Faktiki ünvanı:** Bakı şəhəri, 8 Noyabr prospekti, 15 ("Azure" Biznes Mərkəzi 12-ci mərtəbə, ofis 72), Azərbaycan

**Xidmət haqqı:** Müştərək müqavilədə öz əksini tapmışdır.

3.12. **Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:** "AccessBank" QSC , "ABB-İnvest İnvestisiya Şirkəti" QSC və "Unicapital İnvestisiya Şirkəti" ASC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

4. İstiqrazların ticarətə buraxılması və onun tənzimlənməsi

4.1. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə Emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdirləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikasının ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar iştirakçısı kimi fəaliyyət göstərir. BFB-də pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.

Yerləşdiyi ünvan: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower). İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası- İstiqrazlar rəqabətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən lisenziyaya malik investisiya şirkətinin ticarət hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.accessbank.az) açıqlanır.

4.2. **Market meyker(lər) barədə məlumat:** Bazar şərtlərini nəzərə alaraq Emitent istiqrazların likvidliyinin qorunması məqsədi ilə market-meyker təyin edə bilər. Market-meyker təyin edildikdə, bu barədə məlumat Emitentin və "Bakı Fond Birjası" QSC-nin saytında açıqlanacaqdır.

5. Kredit reytinqləri

5.1. **Reytinq prosesində Emitentin sorğusu və ya Emitentlə əməkdaşlıq nəticəsində Emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil.

## D. "AccessBank" QSC barədə məlumat

1. Emitentin auditorları barədə məlumat

   1.1. **Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat**:

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| 2019 | "PraysvoterhausKupers Audit Azərbaycan" MMC | Land Mark Ofis Plaza III 12-ci mərtəbə, Nizami küç 90A ,Bakı Azərbaycan AZ1010<br><br>T: +994 (12) 497 25 15 | PWC International |
| 2020 | "PraysvoterhausKupers Audit Azərbaycan" MMC | Land Mark Ofis Plaza III 12-ci mərtəbə, Nizami küç 90A ,Bakı Azərbaycan AZ1010<br><br>T: +994 (12) 497 25 15 | PWC International |
| 2021 | "PraysvoterhausKupers Audit Azərbaycan" MMC | Land Mark Ofis Plaza III 12-ci mərtəbə, Nizami küç 90A ,Bakı Azərbaycan AZ1010<br><br>T: +994 (12) 497 25 15 | PWC International |

   1.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi qeyd olunmayıb.

1.3. **Son üç maliyyə ili ərzində ( hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərilməklə ) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri.**

| (mln manatla) | 2021 | 2020 | 2019 |
|---|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | 7 867 | (20 396) | 13 590 |
| **Xalis mənfəət (zərər)** | 4 314 | (18 908) | 4 688 |
| **Cəmi aktivlər (dövrün sonuna)** | 888 568 | 804 681 | 863 290 |
| **Cəmi öhdəliklər (dövrün sonuna)** | 809 299 | 729 729 | 769 430 |
| **Cəmi kapital (dövrün sonuna)** | 79 269 | 74 952 | 93 860 |
| **Pul vəsaitləri (dövrün sonuna)** | 135 314 | 171 265 | 132 198 |

2. Emitent barədə məlumat

2.1. **Emitentin tam adı təşkilati-hüquqi forması:** "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti.

2.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri**: "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti 06 Sentyabr 2002-ci il tarixində 1400057421 (VÖEN) qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

2.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə onun bütün əvvəlki adları təşkilati-hüquqi formaları o cümlədən bu dəyişikliklərin dövlət qeydiyyatı tarixi** 29.10.2002-ci ildə "Azərbaycan Mikromaliyyələşdirmə Bankı" QSC kimi fəaliyyətə başlamış və 08.09.2008-ci il tarixindən etibarən "AccessBank" QSC kimi fəaliyyətini davam etdirmişdir..

**2.4 Emitentin olduğu yer, poçt ünvanı elektron poçt ünvanı emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvan: Bakı şəhəri, Tbilisi pr 3, AZ1065, Azərbaycan

Elektron poçt ünvanı : info@accessbank.az

İnternet səhifəsi : www.accessbank.az

Əlaqə telefonları: Qaynar xətt – 151; +99412 377 00 19

2.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil

2.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

2.7. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur. Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Elektron poçt ünvanı: info@bse.az İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az Tel:(+99412) 539 72 49 BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir

3. Emitent biznesinin icmalı

3.1. **Emitentin əsas fəaliyyət istiqaməti:** Emitentin müstəsna fəaliyyət predmeti bank fəaliyyətidir.

3.2. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Mikro, kiçik biznes və aqro sahəsindəki sahibkarlara, həmçinin korporativ müştərilərə bütün növ bank xidmətlərinin göstərilməsi, pərakəndə bankçılıq sektorunda beynəlxalq bank təcrübəsinə əsaslanan məhsul və xidmətlərin təklif edilməsi Nizamnaməsində bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

3.3. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat onların inkişaf statusu:** Cari ildə Bank tərəfindən ATMlər və MyAccess

mobil tətbiqi son texnologiyalara uyğun yenilənmişdir. Bank tərəfindən yeni dizaynda plastik kartlar buraxılmış, həmçinin sahibkarlar üçün biznes kartlar yenilənmişdir

3.4. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil

3.5. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri**: mikro, kiçik, orta və iri sahibkarlığın maliyyələşdirilməsi, pərakəndə bankçılıq üzrə istehlak kreditləri və kredit kartlar, korporativ bankçılıq

3.6. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**Mövcud deyil

4. Digər təşkilatlarda iştirak

4.1. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri**:

- "MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət. Emitentin MMC-nin nizamnamə kapitalında payı 0.67 % təşkil edir. Ünvan: Bakı şəh. Alı Mustafayev 5A. VÖEN: 1400980591. MilliKart kart əməliyyatları mübadiləsində infrastrukturun tərkib hissəsidir. "MilliKart" MMC hesablarının dəstəklənməsi sms bankçılıq pos terminalların dəstəklənməsi kartların personalizasiyası pin zərflərin çapı üzrə xidmətlər göstərir. (https://millikart.az/az/services.html)

4.2. **Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Emitent hər-hansı qrupa daxil deyil, bu səbəbdən qrupda olan şəxslərdən asılılığı yoxdur.

**5.** Tendensiyalar barədə məlumat

5.1. **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektinə mənfi dəyişiklik olub-olmaması barədə məlumat:** Mənfi dəyişiklik olmamışdır.

5.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar qeyri-müəyyənliklər tələblər öhdəliklər və ya hadisələr barədə məlumat:** Cari maliyyə ilində "AccessBank"

QSC -nin fəaliyyətinə təsir etmə ehtimalı olan tendensiyalara aşağıdakıları aid etmək olar:

- **Tələbin volatilliyi:** Emitentin fəaliyyətinə təsir göstərən əsas amillərdən biri post-pandemiya dövründə nisbi
iqtisadi canlanmanın müşahidə olunması və nəticədə müştəri aktivliyinin artmasıdır. AccessBankın faiz gəlirinin əsas hissənin müştəri kreditlərinin payına düşür və kreditlərin təqribən 80% biznes 20% istehlak ipoteka və s. kreditlərindən ibarətdir.Qeyd edilən sahələrdəki tələb və təklifdəki volatillik fəaliyyətə təsir göstərən faktorlardandır.

**Bazar rəqabətliliyi:** Bankçılıq sahəsində artan rəqabət və güclü rəqiblərin mövcudluğu mikro və biznes seqment müştəriləri üçün bankın cari bazar payının artırılmasında və saxlanmasında risklərə səbəb ola bilər.

- **Geosiyasi risklər və qeyri-müəyyənlik:** Pandemiyanın dünya iqtisadiyyatına, ticarətinə, məşğulluğa və maliyyə bazarlarına təsirlərinin qismən stabilləşməyə doğru getdiyi bir dövrdə qeyri-müəyyən dinamikaya malik yeni situasiya qlobal inflyasiya risklərini yüksəltmişdir.Yüksək qeyri-müəyyənliklər makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasını çətinləşdirmişdir. Geosiyasi risklərin makroiqtisadi və maliyyə sabitliyinə, eləcə də iqtisadi aktivliyə və əhalinin sosial rifahına neqativ təsirlərinin minimallaşdırılması Hökumətin diqqət mərkəzindədir və zəruri adekvat tədbirlər görülməkdədir.

**6.** Gəlir proqnozu: Mövcud deyil.

**7.** Emitentin idarəetmə və nəzarət orqanları

7.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:** "AccessBank" QSC-nin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə məlumat:

**Səhmdarlar barədə məlumat**

| № | Səhmdarın adı | Səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| 1 | FMO | 5729615 | 9.4121% |
| 2 | Engelhart Thomas | 691444 | 1.1358% |
| 3 | LFS Adisory | 81328 | 0.13% |
| 4 | Beynəlxalq Maliyyə Korporasiyası | 10078197 | 16.5556% |
| 5 | Oesterreichische Entwicklungsbank | 5579855 | 9.1661% |
| 6 | Green For Growth Fund,Southeast Europe SA,SICAV-SIF | 1078162 | 1.7711% |
| 7 | Responsability SICAV (LUX) | 3150296 | 5.175% |
| 8 | Responsability Management Company | 4329081 | 7.1114% |
| 9 | Avropa İnvestisiya Bankı | 10583579 | 17.3861% |
| 10 | The European Fund For Southeast Europe SA | 1690380 | 2.7768% |
| 11 | Asiya İnkişaf Bankı | 12116258 | 19.9036% |
| 12 | Qara Dəniz Ticarət və İnkişaf Bankı | 355103 | 0.5833% |
| 13 | Sifem AG | 5411351 | 8.8893% |

Səhmdarların funksiyaları aşağıdakılardan ibarətdir: səhmdarın ümumi yığıncaqda iştirak etmək və səs vermək, bankın idarəetmə orqanlarını seçmək və onlara seçilmək, bankın mənfəətinin bankın nizamnaməsinə və ümumi yığıncağın qərarına uyğun olaraq dividend kimi bölüşdürülməsində (tətbiq edilən Qanunvericilikdə müəyyən edildiyi qaydada) iştirak etmək, bankın işi barədə məlumatlandırılmaq və bankda qərarların qəbul edilməsinə aid bütün məlumatları almaq və bu nizamnamə və tətbiq edilən Qanunvericiliklə müəyyən olunmuş digər funksiyaları yerinə yetirir.

**Müşahidə Şurası haqqında məlumat:**

| № | Soyadı adı atasının adı | Vəzifəsi | Funksiyalar |
|---|---|---|---|
| 1 | Oleq İvaniyçuk | Müşahidə Şurasının sədri | Müşahidə Şurasının fəaliyyətini təşkil edir, Müşahidə Şurasının iclaslarını çağırır və sədrlik edir, habelə Müşahidə Şurasının adından sənədləri imzalayır. |
| 2 | Corc Rubli | Müşahidə Şurasının üzvü | Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarət etmək, habelə İdarə Heyətindən hesabat və məlumat tələb etmək, Bankın Nizamnaməsinə və bu Əsasnaməyə dəyişikliklər edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək, İdarə Heyətinin tərkibində hər hansı dəyişikliklərlə bağlı Ümumi Yığıncağa təkliflər vermək, maliyyə ili ərzində Bankın biznes əməliyyatları haqqında hesabatları müzakirə etmək və təsdiq etmək, illik maliyyə hesabatlarını və illik hesabatı nəzərdən keçirmək, təsdiq etmək və Ümumi Yığıncağa təqdim etmək. |
| 3 | Andrea Haqmann | Müşahidə Şurasının üzvü | |
| 4 | Verner Klas | Müşahidə Şurasının üzvü | |
| 5 | Dariuş Katsprşik | Müşahidə Şurasının üzvü | |

Müşahidə Şurası Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirir, Nizamnamə və qanunvericiliklə nəzərdə tutulan digər səlahiyyətlərə malikdir.

**İdarə Heyəti haqqında məlumat:**

| № | Soyadı adı atasının adı | Vəzifə | Funksiyalar |
|---|---|---|---|
| 1 | Tsiklauri Davit | İdarə Heyətinin Sədri | İdarə Heyətinin işini təşkil edir və Bankın cari fəaliyyətinə rəhbərlik edir. |
| 2 | Hüseynov Ramin Şəhadət | İdarə Heyəti Sədrinin müavini, Baş Maliyyə İnzibatçısı | Baş Maliyyə İnzibatçısı Bankın Maliyyə,Mühasibat və Xəzinədarlıq və Beynəlxalq Əlaqələr Departamentlərinin fəaliyyətinə nəzarət edir. |
| 3 | İsmayılov Orxan Vilayət | İdarə Heyətinin Üzvü, Baş Risk İnzibatçısı | Baş Risk İnzibatçısı Bankın Risklərin İdarəedilməsi, Anderaytinq, Əməliyyatlata Nəzarət, MR və Kreditlərin Bərpası Departamentlərinin fəaliyyətinə nəzarət edir |
| 4 | Quliyev İlkin Adik | İdarə Heyətinin Üzvü, Korporativ və Pərakəndə Bankçılıq üzrə İcraçı Direktor | Bankın Korporativ, Pərakəndə və Marketinq Departamentlərinin fəaliyyətinə nəzarət edir. |

İdarə Heyəti bankın cari fəaliyyətinə rəhbərlik edir və onun səlahiyyətlərinə Nizamnamə və qanunvericiliklə nəzərdə tutulan və bankın digər idarəetmə orqanlarının səlahiyyətlərinə daxil olmayan məsələlər aiddir.

7.2. **Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Mövcud deyildir.

**7.3. Audit və mükafatlandırma komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Mükafatlandırma Komitəsinin əsas səlahiyyətləri: Bankın mükafatlandırma siyasətini və daxili mükafatlandırma prosedurunu müəyyən etmək, nəzərdən keçirmək və qiymətləndirmək;

Mükafatlandırma siyasəti, daxili mükafatlandırma prosedurunun tətbiqini müşahidə etməli və tətbiqinə nəzarət etmək.
Müşahidə Şurasına mütəmadi olaraq hesabat vermək və illik mükafatların ümumi həcmi barədə təklif etmək.
Müşahidə Şurasına Bankın vəzifəli şəxs və işçilərinin həvəsləndirilməsi üçün zəruri və ya arzuolunan hesab etdiyi hər hansı digər xüsusi mükafatlandırma mexanizmləri barədə təklif irəli sürə bilər.
Performansa görə verilən mükafatların səmərəli şəkildə Bankın uzunmüddətli hədəflərinə əsaslandığını və qısa-müddətli hesabat mexanizmləri ilə manipulyasiya olunmamasını təmin etmək.
Mükafatın ədalətli və adekvat olmasını təmin etmək üçün, Mükafatlandırma Komitəsi periodik olaraq Bankın vəzifəli şəxslərinə və işçilərinə verilən mükafatların (maaşlar, əlavə ödənişlər və digər ödənişlər də daxil olmaqla) məbləğini yoxlamalı və yoxlamanın nəticələri barədə Müşahidə Şurasına hesabat verməli, belə mükafatların məbləği barədə Müşahidə Şurasına təkliflər irəli sürməlidir.
Komitənin işi Azərbaycan Respublikasının müvafiq qanunları, Komitəyə dair daxili qaydalar, Müşahidə Şurasının qərarları, Səhmdarların Ümumi Yığıncağı və Bankın Müşahidə Şurası tərəfindən təsdiq edilmiş daxili sənədlər və öz qərarları ilə tənzimlənir.
Komitənin tərkibi:
Corc Rubli, Komitə Sədri, Müşahidə Şurasının Üzvü
Dariuş Katsprşik, Müşahidə Şurasının Üzvü
Andrea Haqmann, Müşahidə Şurasının Üzvü
Davit Tsiklauri, Baş İcraçı Direktor, İdarə Heyətinin Sədri
Nigar Hüseynzadə, İnsan Resursları üzrə İcraçı Director

Audit Komitəsinin hüquq və səlahiyyətləri: Müşahidə Şurasına təklif və tövsiyələr vermək, Müşahidə Şurasının iclaslarında nəzərdən keçirmələri üçün material və hesabatlar hazırlamaq, Bankın İdarə Heyətinə, onun komitələrinə, Bankın müstəqil struktur bölmələrinə və onların rəhbərlərinə tövsiyələr vermək, Müşahidə Şurası ilə məsləhətləşərək Audit Komitəsinə məsləhətlər verməsi və ya araşdırmanın həyata keçirilməsinə kömək etməsi üçün müstəqil məsləhətçi, mühasiblər və ya digər konsultantlar saxlamaq, Audit Komitəsinin öz qanuni funksiyasının icrası məqsədilə öz tələbi üzrə əməkdaşlıq ediləcək Bank işçilərindən və ya xarici tərəflərdən tələb edə biləcəyi Bankın işi ilə əlaqədar hər hansı məlumatları axtarmaq və əldə etmək, Ümumi Yığıncağın və Müşahidə Şurasının növbədənkənar iclaslarının çağırılmasını tələb etmək, İdarə Heyəti üzvləri və Bankın işçiləri tərəfindən onun etik davranış kodeksinə və etik siyasətlərinə əməl edilib-edilməməsinə nəzarət etmək üçün müəyyən edilmiş siyasətləri, prosedur və praktikaları nəzərdən keçirmək və qiymətləndirmək və tətbiq olunan Qanunvericiliyə, daxili siyasətlərə və etik davranış standartına uyğunluğa nəzarət etmək üçün İdarəetmə Şurası tərəfindən yaradılan sistem və praktikaları nəzərdən keçirmək və onlara dair tövsiyələr vermək və hər hansı hüquqi və ya etik pozuntuları aşkar edib aradan qaldırmaq.

Komitənin tərkibi:
Olga Tomash- Audit Komitəsinin Sədri
Werner Claes- Audit Komitəsinin Üzvü
Dariusz Kacprzyk- Audit Komitəsinin Üzvü

**7.4. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

**8.** Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar

8.1. **Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, ünvanları və vətəndaşlığı:** "AccessBank" QSC-nin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan səhmdarlar və ünvanları barədə məlumat:

| Səhmdarın adı | Səhmdarın ünvanı (rezidentliyi) |
|---|---|
| **Asiya İnkişaf Bankı** | ADB pr 6 Mandaluyong,Metro Manila,Filippin Respublikası |
| **Avropa İnvestiya Bankı** | Konrad Adenauer Bulvarı 98-100,Lüksemburq |
| **Beynəlxalq Maliyyə Korporasiyası** | Pensilvaniya pr 2121,Vaşinqton, Amerika Birləşmiş Ştatları |

8.2. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımı tədbirlər təsviri:** Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi yığıncağıdır. Emitentin idarəolunması və işinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəlləsinin 49.1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

8.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil

**9.** Emitentin maliyyə məlumatları

9.1. **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** "AccessBank" QSC son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları bu emissiya prospektinə əlavə edilir.

9.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları**: "AccessBank" QSC 2002-ci ildə təsis edilmişdir və həmin ildən fəaliyyət göstərir.

9.3. **Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə belə maliyyə hesabatları milli mühasibat uçot standartlarına uyğun olaraq hazırlanmalıdır:** Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanır.

9.4. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda)**: Mövcud deyil.

9.5. **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir**: 31 dekabr 2020 və 31 dekabr 2021-ci il tarixinə olan audit olunmuş illik maliyyə hesabatları, 30 iyun 2022-ci il tarixinə olan yarımillik maliyyə hesabatları Emissiya prospektinə əlavə olunur. 30 iyun 2022-cil il tarixinə olan yarımillik maliyyə hesabatları audit olunmamışdır.

9.6. **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Aralıq audit edilməmiş yarımillik maliyyə hesabatları Emissiya Prospektinə əlavə olunmuşdur.

9.7. **7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) :** Belə proseslər mövcud deyil.

9.8. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** 2022-ci ilin II-ci rübünün hesabatından sonra emitentin maliyyə vəziyyətində ciddi dəyişiklik baş verməmişdir.

**10.** Müqavilələr

10.1. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil

## **E.** ƏLAVƏLƏR

1. **AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI**

2. **ARALIQ MALİYYƏ HESABATLARI**